# Azərbaycanlı alim xüsusi mükafata layiq görülüb

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Elm və texnologiya sahəsi üzrə xüsusi mükafatına bu il AMEA-nın vitse-prezidenti, Azərbaycan Respublikası Elm, Təhsil Nazirliyi Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik, biologiya elmləri doktoru, professor İradə Hüseynova layiq görülüb.




Bu barədə qərar 2023-cü il noyabrın 9-da İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən 16-cı Zirvə toplantısında qəbul edilib. Mükafatın qalibləri tədbirə evsahibliyi edən ölkənin Prezidenti Şavkat Mirziyoyev tərəfindən elan olunub.

Qeyd edək ki, İqtisadi Əməkdaşlıq Təşkilatının müxtəlif sahələr üzrə təsis etdiyi mükafatlar hər nominasiya üzrə təşkilata üzv ölkələrdən təqdim edilmiş namizədlər sırasından seçilmiş bir nəfərə verilir.

Xatırladaq ki, mükafatın builki sahibi akademik İradə Hüseynova 400-dən çox, o cümlədən yüksək impakt faktorlu jurnallarda çap olunmuş 100-ə qədər elmi əsərin, 5 monoqrafiya, 2 kitab, 4 buklet, 10 kitab fəslinin müəllifidir. Azərbaycan elminə layiqli töhfələr verən akademikin elmi rəhbərliyi və məsləhətçiliyi ilə 8 fəlsəfə və 3 elmlər doktoru hazırlanıb.

Ömrünü ali bitkilərin fotosintetik membranlarının piqment-zülal komplekslərinin sintezi, yığılması və formalaşması proseslərinin molekulyar-genetik aspektlərinin tədqiqinə, bitkilərin abiotik və biotik streslərə davamlılıq mexanizmlərinin aydınlaşdırılmasına həsr edən akademik İradə Hüseynovanın gəldiyi nəticələr məşğul olduğu sahənin çox qiymətli incisi hesab edilir.

***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 29 dekabr (№286).- S.15.